# ATƏT-də islahatlar qaçılmazdır

Faktiki olaraq, ATƏT Cənubi Qafqazda nə faktaraşdırıcı missiya kimi normal fəaliyyəti ilə seçilib, nə də Azərbaycanla Ermənistan arasında olan problemin həllinə hansısa bir töhfə verib. Ona görə də dövlətimizin başçısı Münxen görüşlərində də bu məsələni xüsusi diqqətə çatdırdı və bildirdi ki, ATƏT-in öz strukturlarına tənqidi münasibəti və orada ciddi islahatların həyata keçirilməsi zəruridir. Çünki ATƏT-in üzvü olan ölkələr artıq bu quruma ciddi qurum kimi yanaşa bilmirlər. Çünki bu təşkilat öhdəliklərini yerinə yetirmək imkanına sahib deyil, heç belə niyyəti də yoxdur. Vasitəçilik adı altında turist səfərləri təşkil edən, qarşılıq müqabilində haqsızlığı müdafiəyə qalxan və işğal fakına bəraət qazandıran ATƏT kimi bir qurum yalnız təhlükə mənbəyi ola bilər.

6

Azərbaycan, № 40.- S.1, 6. 22 fevral 2024-cü il

# ATƏT-də islahatlar qaçılmazdır

"ATƏT-in Minsk qrupu və Yüksək Səviyyəli Planlaşdırma Komitəsi kimi strukturlarının fəaliyyətinə artıq ehtiyac yoxdur. Xüsusilə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam təmin edildiyi bir vaxtda Minks qrupu kimi büdcəsini kef məclislərinə və mənasız səfərlərə xərcləyən qərəzli bir qurumun "vasitəçi"liyi ancaq yeni problemlər yarada bilər".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, uzun illərdir ki, Azərbaycanın maraqlarını tapdalayan və prosesin bir addım belə irəliləməsinə kömək etməyən "vasitəçi"lərlə rastlaşmağımız bizə təcrübə qazandırıb: "Bu tarixi təcrübə vasitəçilik məsələsində prinsipial mövqe sərgiləməyimizə və problemin həlli üçün daha çox çalışmağımıza imkan verir. İstənilən halda, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına vasitəçilərsiz nail olmaq daha məqsədəuyğundur. Prezident İlham Əliyev də inaqurasiya mərasimində birmənalı şəkildə ifadə etdi ki, biz bu prosesi vasitəçilərsiz aparmaq niyyətindəyik. Ermənistanla birbaşa danışıqlara girərək məsələləri tənzimləmək ən optimal variantdır".



Deputatın sözlərinə görə, vasitəçilik məsələsi beynəlxalq təşkilatların fəaliyyətində olan nöqsanların bir daha gözdən keçirilməsini tələb edir. Fəaliyyətinin yenidən qiymətləndirilməsi lazım olan qurumlar arasında ilk növbədə ATƏT dayanır. Aydınlaşdırmaq lazımdır ki, ATƏT-in və tərkibində yaradılmış digər strukturların fəaliyyətinə doğrudan da ehtiyac varmı?!

"Faktiki olaraq, ATƏT Cənubi Qafqazda nə fakt-araşdırıcı missiya kimi normal fəaliyyəti ilə seçilib, nə də Azərbaycanla Ermənistan arasında olan problemin həllinə hansısa bir töhfə verib. Ona görə də dövlətimizin başçısı Münxen görüşlərində də bu məsələni xüsusi diqqətə çatdırdı və bildirdi ki, ATƏT-in öz strukturlarına tənqidi münasibəti və orada ciddi islahatların həyata keçirilməsi zəruridir. Çünki ATƏT-in üzvü olan ölkələr artıq bu quruma ciddi qurum kimi yanaşa bilmirlər. Çünki bu təşkilat öhdəliklərini yerinə yetirmək imkanına sahib deyil, heç belə niyyəti də yoxdur", - deyə müsahibimiz söyləyib. Fazil Mustafa həmçinin deyib ki, vasitəçilik adı altında turist səfərləri təşkil edən, qarşılıq müqabilində haqsızlığı müdafiəyə qalxan və işğal fakına bəraət qazandıran ATƏT kimi bir qurum yalnız təhlükə mənbəyi ola bilər.

Deputat bir sıra strukturlar ləğv ediləcəyi halda, ATƏT-in büdcəsinin daha məqsədyönlü və daha vacib layihələrin maliyyələşdirilməsinə yönəldilməsinin mümkünlüyünü də bildirib. Fazil Mustafa əlavə edib ki, bu gün ATƏT ciddi maliyyə sıxıntısı yaşadığını nəzərə alıb fəaliyyətsiz strukturlarını ləğv etməlidir: "Fəaliyyətini, əsasən, Fransa və Almaniyanın istəkləri üzərində quran ATƏT strukturları məhz bu səbəbə görə məğlubiyyətə məhkumdur. Xüsusilə Minsk qrupunun uzun illər sülhə əngəl cəhdləri və sair faktlar Azərbaycanı öz torpaqlarını işğaldan azad etdikdən sonra belə qurumlara olan münasibətini daha sərt formada ortaya qoymağa məcbur etdi. Nəzərə almaq lazımdır ki, Minsk qrupunun ləğvi onların gəzinti və turist fəaliyyətlərinə də son qoyacaq. Nəticədə, ölkələrin üzvlük haqqı kimi ödədiyi vəsaitlər onların komfortuna xərclənməyəcək. Prezident tərəfindən bu mövzunun gündəmə gətirilməsi isə onun təkcə bölgə lideri yox, həm də Avropada söz sahibi olan qlobal lider kimi davrandığını göstərir".

Fazil Mustafa yekunda vurğulayıb ki, Prezident İlham Əliyev Azərbaycanın narahat olduğu məsələləri Avropa məkanında gündəmdə saxlamaqla ölkəmizin maraqlarını müdafiə edir: "ATƏT müstəvisində də artıq anlamalıdırlar ki, Azərbaycanı hansısa bir şəkildə təhdid etmək, qorxutmaq, yaxud mövcudluğunu məhdudlaşdırmaq perspektivli yol deyil. Azərbaycanla hesablaşmadan regionda müəyyən proseslərdə iştirak etmək, demək olar ki, mümkünsüzdür".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***